# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **№283/1** **21 dekabr 2016-cı il**

**Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2017-ci il üzrə iş planı barədə**

"Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa, "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnaməyə və "Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyasına (2012-2020-ci illər)" uyğun olaraq, habelə Auditorlar Palatasının 2016-cı il üzrə iş planının "2017-ci il üçün Auditorlar Palatasının iş planının hazırlanması" barədə 8.9-cu bəndinin icrası ilə bağlı tərtib edilmiş və Palata Şurasının 2016-cı il 5 dekabr tarixli 282/1 nömrəli qərarı ilə təsdiq edilmiş Auditorlar Palatasının 2017-ci il üzrə iş planı əsasında hazırlanmış Palata Şurasının 2017-ci il üzrə iş planının layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2017-ci il üzrə iş planı təsdiq edisin (əlavə olunur).
2. Auditorlar Palatasının Aparatına (Q.Bayramov, N.Talıbov, F.Qarayev) və struktur bölmələrin rəhbərlərinə (M.Abbasov, S.Gülməmmədov, V.Rəhimov, Y.Namazəliyev, R.Cəfərli, M.Hüseynova) tapşırılsın ki, Palata Şurasının 2017-ci il üzrə iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə icra olunmasını təmin etsinlər.
3. Palatanın Şurası yanında komitələrin rəhbərlərinə tövsiyə edilsin ki, komitələrin əsasnamələrinə uyğun olaraq Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2017-ci il üzrə iş planında nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsində yaxından iştirak etsinlər.
4. Auditorlar Palatasının Aparatına (Q.Bayramov, N.Talıbov, F.Qarayev) və Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov, T.Əmiraslanov) tapşırılsın ki, 1 (bir) ay müddətində Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2017-ci il üzrə iş planının Azərbaycan, rus və ingilis dillərində Palatanın internet səhifəsində yerləşdirilməsini təmin etsinlər.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**